# MUZAFFERUS

# Şizofrenik Saturn

nəşriyyatı

Redaktor:
**Elsevər Muradov**

Korrektor:
**İncə Əliyeva**

Mətn tərtibatı:
**Bəxtiyar Ələkbərov**

Dizayn və qrafika:
**Zaur Əlizadə**

***Muzafferus. Şizofrenik Saturn***
***"XAN" nəşriyyatı. Bakı–2016. 96 səh.***

---

Çapa imzalanıb: 03.03.2016
Formatı: 70x100 1/16. Ofset çapı
Həcmi: 6 / Sifariş № 237
Qiyməti: 5 manat

**ISBN: 9000000060065**
**"XAN" nəşriyyatı / 2016**

yaxşı ki gəldin.
böyük stəkan götür.
çaydan, qəhvədən bir şey süz,
otur.
kəmərini bağlamağı da unutma.
uçuşa hazırıq kapitan.

“Mən bir cümləlik nöqtə deyiləm;
Məni şeirlərimlə basdırın”.

**Saqopa Kajmer**

**nağıllar aləmi**

## biri var idi, biri yox idi

hər şey tam o gün başladı;
hər şeyi anladığım gün.
ikili mənliyi anladığım gün.
mən var idim, mən yox idim,
biri var idi, biri yox idi.

hər şey o gün başladı:
gözümə görünən insanlar...
yəni onların mənim uydurmam olduğunu
anladım.
onlar var.
onlar yoxdur.
biri var idi, biri yox idi.

yəni ikili insan düşünün.
həm "dəli", həm "ağıllı".
insanların gözündə
"ağıllı" var,
"dəli" yox.
öz gözündə
"dəli" var,
"ağıllı" yox.
indi deyin görüm
kim var, kim yox?
biri var idi, biri yox idi.

hər şey bir nağıl kimi başlayır.
və sən nağılların reallıqdan gözəl olduğunu
anlayırsan.
nağıllar aləmini axtarırsan.
o qapını axtarırsan.

tələs.
az qaldı.
qapı bağlanacaq.

bir gördün var, bir gördün yoxdu.

əslində, nə gözümə görünənlər var,
nə eşitdiyim səslər.
mən əmin deyiləm
nə realdır, nə uydurma;
nə doludur, nə boş.
nə var, nə yox.
biri var idi, biri yox idi.

tık-tık-tık-tık,
döyünən başım.
açıb qapımı otururam,
salamlaşıram özümlə,
"mən gəldim" deyirəm.
qəribə ifadəylə baxılır üzümə.
tanınmadımmı görən?
adımı-soyadımı deyirəm.
baxılır kağızlara.
mən varmıyam, mən yoxmuyam?
gülməliyəm, yoxsa ağlamalıyam?
sevinməli, yoxsa kədərlənməli?
sevməliyəm, yoxsa nifrət etməliyəm?
birinimi seçməliyəm?
mən ikiləşəndən bəri,
hər ikisini seçəndən bəri
başladı hər şey.
o günə qədər sadəcə
biri var idi, biri yox idi.

## mən ulduzlara qonşuyam

əlimi atdım,
əlimi atdım, ulduzlara toxundum.
“toxundum” demişkən,
oyandım yuxudan.
oyandım ki, bir kənarda yuxulamışam.
ulduzlar məndən uzaq,
amma necə gözəl görünür göy.
nə gözəl görünür səma.
ulduzlar mənə dost,
sanki...
qonşuyam ulduzlara,
elə bil ki, bu gözəllik hədiyyədir mənə.

yavaşca,
sakitcə,
bunu gizlincə dinlə.
nə gözəldir səma,
nə gözəldir xəyallar,
və nə gözəldir arzular.

bu,
bu sadəcə bir əl uzaqlığında.
uzat əlini ulduzlara,
yox, yox, bu həqiqət deyil.
o qədər uzağa uzana bilməz heç kimin əli.
bu sadəcə xəyaldır.
uzat əlini ulduzlara
toxun ulduzlara.
gör onun gözəlliyini.
hiss et,
güc al,
enerji al.

sən,
sən ağlayarkən
ulduzların parıltısı gözyaşına işarədir.
sən gülərkən ulduzların parıltısı
möhtəşəmliyin işarəsidir.
sən kədərliykən bəzən görərsən ki,
ulduzlar yoxdur.
onlar da kədərə bürünüb,
qara rəng alıb,
görünmür səmada.
onlar sənin xoşbəxtliyini bölüşmək üçün,
onlar sənin xoşbəxtliyini artırmaq üçün...
düzülmüşlər ulduzlar səmalara...

yox-yox, onları tərifləmirəm mən,
onlar bu qədər mükəmməl deyil.
düşün bir:
paxıllıqlarından göyə mıxlanıblar.
qalıblar orada.
uzaqdadırlar.
çatmır əlim.
toxuna bilmirəm ulduzlara.

yox-yox-yox.
bu qədər də dərdli,
bu qədər də kədərli,
onlar bu qədər düşmən deyil.
açıq-aşkar səmada gözləyirlər.
"bax" deyə,
"toxun" deyə.
"əlini uzat, əlin ulduzlara dəysin" deyə.

mən ulduzlara qonşuyam.
onlar hər gecə mənim dostum.
mən ulduzlara qonşuyam.
mənim səmamı qaranlıqdan qoruyurlar.

mən ulduzlara qonşuyam.
onlar,
onlar, büsbütün bir qara rəngin içində
gözəl görünən kiçik ağ parçacıqlar.
mən ulduzlara qonşuyam.
onlar,
onlar göstərir ölümü,
onlar göstərir doğuluşu,
onlar göstərir varlığı.
bəlkə də milyon il əvvəl sönüb,
bəlkə də yüz il əvvəl.
bəlkə elə indicə biri söndü,
amma biz bunu görmürük.
lakin mən bunu görmürəm,
ancaq mən indi bilirəm ki,
50 il öncə hansı ulduz sönüb.
fəqət mən 80 il sonra biləcəm ki,
bu gün hansı ulduz sönmüşdü.

indi söndür işıqlarını,
bax ulduzlara,
ulduzların səssiz pıçıltıları...
onlar danışır səninlə,
onlar söhbət edir səninlə,
onlar baxır gözlərinin içinə.

bir bax ulduzlara,
hansı gözünü qaçırır sənin gözündən?
hansı qaçmaq istəyir gözünün qarşısından?
hansı uzağa getmək istəyir?
yanındadırlar.
qonşuluğunda.
əlini uzat,
toxun ulduzlara.

## dəyişib

dünən gecə oturub qaranlığın içində,
baxarkən gördüm, bir işarə var üzərimdə;
həm bədənimin, həm beynimin, həm ruhumun.
öncə düşündüm
“niyə üç yerə bölünmüşəm”, – deyə.
və anladım
düşünmək üçün olduğunu beynimin.
düşünüb, fikirlərimi analiz edib,
bir qərar qəbul etməli olduğumu
anladım.
ruhumun inanmaq üçün var olduğunu
anladım.
amma, deyəsən, insanlar bunu qəlblə əvəzləyib.
nə fərqi var?
qəbul etdiyin qərara inanmağın önəmli.
sonra onu reallaşdırmağın.
bədənim də bunun üçündür.
əməllərim üçün.
müqəddəs üçbucağı birləşdirmək üçün.

sonra ona, işarəyə baxdım diqqətlə.
baxdım, baxdım.
və qəribə bir dəhşət bürüdü məni.
heç biri eyni deyildi.
əslində ən dəhşətlisi:
heç biri mənə aid deyildi...

bir anlıq kənardan baxdıqda özümə,
anladım:
dəyişdirilmişdi beynim!
başqalarının düşüncə və fikirləri ilə;
ideyalları və qərarları ilə.
yaşayırdım.
dəyişilmişdi ruhum.

başqalarının inancını mənimsəyirdim.
hətta, hətta dəyişilmişdi bədənim,
mənlə əlaqəsi olmayan əməllərə sahib idim.
nifrət etdim özümə.
üç dəfə!

bilirsiz?
indi baxıram sizə,
çoxunuz məndən fərqlənmirsiz.
zibilə qalmış televizor verilişləri
dəyişdirib beyinlərinizi.
yerinə öz saxta beyinlərini qoyub.
filmlər, kitablar, musiqilər dəyişdirib,
ruhunuzun yerinə başqasını qoyub.
dostlarınız, ailəniz, hətta
mədəniyyət, adət-ənənə ifadələri
əməllərinizi dəyişdirib.
saxta insanlara dönmüsüz.
hansınızın öz beyni, öz bədəni var?
ən azından, heç olmazsa,
öz ruhu olan varmı?
sağ qalan varmı?
varmı sağ qalan?

## mən xəyallarımla sevgiliyəm

bir gecə
saat 3-5 –
unutmuşam.
oturmuşam bir küncdə, boş bir otaqda.
soyuq,
bir az da qorxu hiss edirəm.
mən, mən xəyallarımla baş-başa qalmışam.
həyatında heç səhra görməyən adam
dursun,
özünü "səhra adamı" adlandırsın?
necə də gülməli.
mən xəyallarımdakı səhra adamıyam.
mən möcüzəyəm.
yəni düşünün.
bir sevgilim var
gözləri...
eh...
inanın, adını xatırlamıram.
soyadı, yaşadığı yer və başqa məlumatları.
onun real olduğuna dair
heç bir sübutum yoxdur.
mən onu sevirəm.
mən onlu xəyallarımı sevirəm.

bir gecə...
saatım da yox.
boş otaqda oturmuşam.
bir mən varam,
bir də boş qalan 5 stul.
Azad, Fərid, Rəsul, Jalə, Nigar.
mənim xəyali dostlarım.
obrazlarım.
gəlin, gəlin əyləşin,
bir az söhbət edək.

siz ki mənim xəyallarımdasınız.
siz ki mənim beynimin içindəsiniz.

bir gecə...
ağlamaq üçün çabalayıram.
bacarmıram.
yox, gülməyi də bacarmıram.
mənə danışın
xəstələrdən.
gözlərinin qarşısındakı görünməzlərdən.
o xoşbəxt insanlardan;
psixi pozuntulardan;
onların dünyasından danışın.
bu dünyanın adı bilirsiz nədi?
"xəyallar"!..

bir gecə anladım ki,
mənim xəyallarım,
mənim xəyali dünyam.
bütün varlığı, böyüklüyü qədər
heçliyə, boşluğa məxsusdur.
mən bu heçliyi sevirəm,
mən xəyallarımla sevgiliyəm.

yəni boşluq.
bu çox, çox qorxuducudu.
bəli-bəli, möhtəşəmdi.
qorxulu olan da onun möhtəşəmliyidir.

qorxulu olan bilirsiz nədir?
sevgilimdən ayrılmağım.
axı boşluğu dolduran xəyallardı.
ayrılsam?
boğularam.
axı mən sevirəm...
axı mən xəyallarımla sevgiliyəm.

yəni bir düşünün:
“dünyanız” əlinizdən alınır.
sağaltmaq adıyla.
bir-iki dərman.
sonra sakitlik.
boşluq.
və...
boğulursan.
dərindir,
yoxluq çox dərindir.
çox...

## mənim pəncərəm divara açılır

hər səhər günəşin şüaları sığallayır üzümü
pəncərədən düşən şüalarıyla.
erkəndən qalxıram mən.
gülürəm,
yaşayıram.
açıram pəncərəmi,
baxıram...

öncə səmalar,
ağ buludlar diqqətimi çəkir.
pambıq kimi yumşaqlıq hissi verir.
ya da ki, mavi rəngli səma
rahatlığı bəxş edir.
hər gün, günə belə başlamaq
həyatı dəyişdirir.

pəncərəmi açarkən eşidirəm quşların səsini,
musiqili səs-küyü.
o səs mənə sevdirdi musiqini.
keçib pianino qarşısına,
öyrənməyə başlamışdım notları.
hələ ilk əsərimi bəstələyəndə,
həsr etdim həmin sərçələrə.

pəncərəm açılır böyük bir yaşıllığa,
otlar yamyaşıl.
araya sığışdırılıb 3-5 rəng,
güllər nə gözəl görünür.
arada dərim oradan 5-3 gül,
sevgilimə də apararam bəlkə.
deyəcəm gül.

insana böyük hüzur verir,
pəncərəsinin möcüzəyə açılması.
insanı insan edir,
xoşbəxtliyin bir pəncərə qədər yaxın olması.

bu gün səhər oyandım erkəndən,
yaxınlaşıb açdım pəncərəmi.
yavaş-yavaş ovub gözlərimi,
baxdım diqqətlə upuzun gələcəyə.
yox, bir dəqiqə.
bu nədi?
nə zamandan belədi?
ola bilməz axı bu.
bu necə mümkün oldu?
mən... mən inana bilmirəm.
mənim pəncərəm divara açılır.
sadəcə divara.

## gedirəm

hələ... hələ gedəcəyim yerlər var.
mən çox xəyallar qurmuşam axı.
həyatım var əlimin altında.
yaşayacağım ömrüm var.
açıq qapılar.
gülən üzlər.
mənim yaşayacağım bir ömür var.
yox, yox, gedirəm.
tabutumun içindəyəm;
məzarıma gedirəm.

hələ gedəcəyim yerlər var.
mən kosmonavt olacam.
aya çıxacam,
ayaq basacam.
ya da, bəlkə uçdum Marsa.
bəlkə də daha uzaqlara.
qarşımda böyük kəşflər var.
qarşımda böyük həyatım var.
yuxarı yox,
aşağı gedirəm.
tabutumun içindəyəm,
məzarıma gedirəm.

külək.
üşüyürəm.
soyuğu hiss edirəm.
ağaclar əyilib.
çıxacam ağaca.
oradan danışacam küləklə:
oraya, məni ora,
buludların yanına aparsın.
gedirəm buludların yanına,
yağış olub yağmaq üçün.

yox, yox, gedirəm.
tabutumun içindəyəm.
yağış qoxulu torpaqda
yatmağa gedirəm.

## inandır məni

məni inandır mənim varlığıma

bəlkə məni sən yazdın?
bir şeir yazdın, məni yaratdın.
sonra özündən soruşdun məni,
öz varlığından fərqli bir məni.

sənin adın var, soyadın var, neçəsə yaşın,
qaldığın ünvan, doğulduğun şəhər, getdiyin məktəb.
sənin barmaq uclarında mürəkkəbin izləri var.
sənin xəyalların, hədəflərin, düşüncələrin var.
bir-iki yalan danışanda həqiqətə də salam deyirsən.
ailən var, yaxınların, dostların, tanışların.
bəlkə özündən də çox sevdiyin sevgilin var.
yox!
sənin sevgilin yoxdur ki, yazdın məni; etdin özünə aşiq.
sənin mənə ehtiyacın var.

bəs mənim, mənim nəyim var, hə?
de görüm zibilə qalmış adım nədi?
hansı xarabasında yaşayıram hansı şəhərin?
tez bir ad uydur, bir rəqəm de, olsun adım, yaşım.
məni inandır ki, mən varam.
göstər mənə şəkillərimi;
göz yaşlarımı və gülüşümü göstər.
inandır ki, mən varam.
sən varsan və mən də sənin kimi varam.
məni inandır ki, mən uydurma bir xəyal deyiləm.
mənə de ki, mən boş, adi sətirlərdən ibarət deyiləm.

xahiş edirəm, yalvarıram, mənə bir həqiqət ver.
mənim real olduğumu göstərəcək bir işarə,
əllərimə toxun, kiçik bir hiss ver.
inandır ki, mənim bir yolum var,
o yol bir yerdə sənin yolunla kəsişir.
qaçım gedim, durum o yol ayrıcında
gözləyim səni, gəlincə görmək ümidi ilə.
görüm səni və inanım
sən varsan,
mən varam...

## boğuluram

görən bu gecə harda boğulacam?
yenə birinin şəklinə ilişibmi qalacam?
gözlərində,
ya da təbəssümündə.
bəlkə də, saçlarına sığal çəkərkən tapacam
özümü.
bəlkə də, bambaşqa bir yerdə.
Saturnun üzərində.
aya da ayaq basa bilərəm.
boğulmaq üçün dəniz belə yetər.
dalğalar yarana duz bassın deyə,
sadəcə eşitmə, görmə
bir də toxun.

bu gecə bəlkə toxundum kiçik bir heyvana,
ya da tam tərsi... qaçacam insansız bir adaya.
bu gecə harda itəcəm?
hara göndərəcəm bu ruhumu?
bu gecə sizə qonaq gələ bilərəm?
pəncərəni açıq qoy,
gəlib kitab rəfinə girəcəm.
gecə mətbəxdən səs gəlsə, qorxma.
acam, bir az yemək yeyəcəm.
ya da güzgünün qarşısında durub baxacam.
özümə yox,
o güzgüyə baxarkən gördüyün sənə baxacam.

bu gecə
gələrsən gedərik.
əlimizə alıb bir içki
oturub şəhəri izləyərik bərabərcə.
təsəvvürümüz o qədər genişdi ki,
səmadan bir-iki qonaq da çağıra bilərik.
istəsən.

ya da bu gecə burax, unut məni.
yatağımda qıvrılım qalım bir küncdə...
susum, susum, susum.
susqunluğumdan anla kədərimi.
burax da bu gecə kədərdə boğulum.
sabah gələcəm; gedərik ölməyə.
boğularaq...

## göydən üç alma düşür

Salam!

bu məktubu 34-dən yazıram.
deyilənə görə mən
və digərləri,
hə, hə, digərləri –
çoxu qəbul etmir onları,
ya saymır, ya görmür.
yox, onlardan bolca danışdım.
indi mən almalardan danışacam.
hə, hə, almalardan.
üç ədəd alma.
bu gün sonuncu gündü.
üçümüz də gedirik.
dedik geridə bir iz qoyaq.
bu gün mən xəstəxanadan çıxıram artıq.
“ağıllı” adıyla qovurlar artıq.
illərdir “dəli” dedikləri azmış kimi.
insanlar... insanlar niyə bu qədər hörmətsiz?
Azad və Fəridə qarşı;
mənə qarşı.
görmürlər bu iki dostumu.
eşitmirlər.
bunları boş, boş verin.
bəzən mən də görmürəm.
eşitmirəm.
amma hiss edirəm.
bəli, hiss edirəm
varlıqlarını;
var olduqlarını.
gülümsəyin, əfəndilər, gülümsəyin.
bir xatirə şəkli çəkək.
çık...
biz gedirik.

üçümüz də.
deyilənə görə
bir nağıllar aləmi var,
qapısı bağlanır.
artıq
biz...
biz ora gedirik.
üçümüz.
çatanda oradan bir işarə göndərəcəyik:
“biz çatdıq,
siz də gələrsiz.”
işarəmiz isə “alma” olacaq.
sizə göydən alma atacağıq.
üç ədəd alma.
biz gedirik.
biz çatdıq.
əlvida!

**fəza boşluğu**

## adı bilinməyən planet

bir qaya parçası kimiyəm,
fəzanın ən dərinliklərində sürünən.
heç nə olduğumu, harda olduğumu bilmirəm.
ən ucqar küncündəyəm sanki dünyanın.
zülmət qaranlığı sevirəm mən.
əhatələnmişəm onunla.
nifrətim var qaranlığa,
bir sonsuzluq qədər zaman dilimində,
yapışıb yaxama,
əl çəkmir məndən.

sonra bir dəfə
dəyişdi dünyam.
öyrəndim ki, deyiləm mən adi.
böyüyəm, nəhəngəm.
koram,
amma hiss edirəm.

bir dəfəsində işığı tapdım.
başladım dönməyə ətrafında.
döndüm, döndüm, döndüm...
hələ də dönürəm.
nə yaxınlaşa bilirəm,
nə qaça.
ancaq üç-beş yüz kilometrlik
bir dəyişkən məsafə var.
bir də yaxınlıqda 6-7 kiçik qardaşım.
niyə qardaşım?
onlar da mənim etdiyimi edir;
dönür.

bir-ikisi deyəsən şuluqluq edir,
sakitcə, mehribanca.
amma işığın ətrafında
əks istiqamətdə baş yelləyir.
bir də böyük qardaşım var buralarda
dönür sonsuz toz-duman ətrafında.

**bir parça**

səssizcə külək sığallayarkən üzünü,
dərin bir nəfəs alışı qədər uzun çəkdi sakitlik.
sonra buludlar.
yorğunluq yox, bu səfər
təbəssüm var üzündə.
əllərində gül,
sıxıb.
o, tək gül parçasını bərk-bərk sıxıb,
əzib ovuclarında.
icazə verib, rəngi qatışsın dərisinə.
hopsun bədəninə,
ilişib qalsın hisslərində.
beyninin bir kiçik küncündə.
icazə verib
məhvə.

külək qoparıb ovcundan bir parça apardı.
uzağa.
uzaqlara.
rəqs etdikcə o kiçicik hissə buludlarla,
qırmızıya büründü bütün dünya
şimşəklər çaxıb yağmağa başladı
toxumcuqlar səpələndi bütün yer üzünə;
hər biri bir qırmızı qərənfil carçısı
hər biri bir sevgi payçısı,
yolçusu.
yol uzaq.
təmizləyib ovuclarını, ayağa qalxdı.
yol uzun;
çox uzun..

## bir şeirdir həyat

bir şeirdir həyat,
bir az səliqəsiz.
bir qədər dağınıq misralar kimi görünür.
baxan...
baxan bilir ki, nə zibildir.
yaxşıdı, pisdi.
səliqəli, səliqəsiz.
gözəllik: mənalarla dolu,
yoxsa hisslərlə?
yazmışıq
yoxsa, sadəcə bomboş yığıntı?

bir şeirdir həyat,
necə ki şeirlər olur
insanlara dost,
necə ki şeirlər olur
xəyallar qurduran varlıq.
necə ki şeirlər olur
ümid verən, xoşbəxtlik verən,
təbəssüm verən,
insanı güldürən
bir parça yazı.
həyat da belədir.
bir şeirdir həyat.

bir şeirdir həyat,
necə ki şeirlər var, oturub səni hönkür-hönkür
ağladan.
necə ki şeirlər var
səni səndən alan;
səni, həyatını, düşüncələrini,
sənin fikirlərini
sənin əlindən alan.
səni qorxudan,

səni qəddarcasına parçalayan.
və aqressiyanı sonuncu dozasına qədər
damarlarına axıdan.
bir şeirdir həyat.

bir şeirdir həyat,
bir az təbəssüm,
bir az kədər.
bir şeirdir həyat,
yarım boşqab yemək,
yarım stəkan çay.
bir şeirdir həyat,
başlığı var, sonu var.
kimdə sətirlər upuzun gedər,
poeziya deyərlər bunun həyatına.
kimdə bir kiçik sətir,
bir neçə söz.
bəlkə çox mənalı,
bəlkə çox qəddar.
bəlkə də çox mükəmməl.
bir şeirdir həyat,
sənin həyatını, soyuqluğunu,
bütün buzluğunu hiss edər
və səni isidər.

bir şeirdir həyat,
bəlkə də tam əksi qədər
o soyuqluğu, o buzluğu,
o qorxu və kədəri sənə verər.

bir şeirdir həyat,
təbəssümlə bərabər gələcək olan
o mülayim, o istisna,
o sərinlik, gözəllik.
o mehribanlıq,
bunu sənə verər.

ya da sənin əlindən alar.
oyuncaqsan.
necə ki
oxuyan məcburdur
şeirin axımıyla getməyə.
necə ki
yaşayan məcburdur
həyatın dalğalarına tabe olmağa.
bir şeirdir həyat.
bir şeirdir həyat.

## bütün nifrətimin adı: sən

yığıb bütün gücünü,
tutub günəşi qoparasan yerindən.
paxıllığı tutsun qaraya mıxlanmış ulduzların.
hayqırasan aya tərəf,
baxıb da boğulsun qəhərindən.
parça-parça edəsən günəşi.
tökəsən içindəki nifrəti üzərinə.
əlin yana.
acı çəkib
daha da qəzəblənəsən.
qəzəbin artdıqca boğulasan,
boğulduqca boğasan.
parça-parça edib atasan bir zibilliyə,
aya acıq olsun deyə.
yanına da qatasan bütün həqiqətlərini;
sahib olduqlarını.
səni sən edən bütün doğruları.
zibilə
qalasan yalanlarınla baş başa.
sən ən böyük yalansan.
sən sadəcə bir heç.
sən yoxluq.
sən boşluq.
sən...

**düşür**

nə zaman oyanacaqsan?
ayıl artıq.
geridə qoyduqlarına bir dön bax.
gül.
gülün.
gülün deyirəm sizə.
kinayəylə özü də.
gülün mənə,
mən də danışım.
o gülüşlərin arxasında gizlənən sizlərdən,
misal üçün sən,
ya da sən
nə zaman oyanacaqsan?
biz burulğanlarda boğulduq.
içimizə doğru.

ağrı, ağrı...
özü də elə ağrı ki,
hiss etdirməyən ağrı.
bəs rahatlıq?
bax o zaman hiss et.
gözlərini yumub
yenə  özünü bir axşam atarkən bir böyük qayadan,
içəri doğru
hiss elə.
bədənindən böyük bir şey çıxır.
ruh demirəm.
biz gözə görünənlərə inanmırıq!.
misal üçün, bir yalan.
bax elə bunu istəyirdim.

dayan!
səsi eşitdin?
bir üç-beş il əvvəl yıxılmışdım
qayadan.
deyəsən, çatdım ən dərinə.
çox pis əzildi.
deyəsən, boynumu da qırdım.
ən dibindən özü də
ən incə yerindən qırılmışdı həyatım.
saç tükütək...

## gözlərimin içinə bax və de

zibilə qalsın,
bu nə işıqdı belə... gözüm çıxdı.
hardayam mən?
mən niyə heç yerimi hiss etmirəm?
nə oldu mənə?
deyəsən, kimsə var burada.
hey, sən!
qorxaq kimi qıraqda qalma.
yaxınlaş.
gözlərimin içinə bax.
bir dəqiqə.
mən hardayam?
ölmüşəm?
haradı bura?
lənət olsun.
gözlərimin içinə bax!.
mənə de ki, bura cənnətdi.
mənə de ki,
keçən ay sol ayağımı itirmişdim.
o bütün günahlarımın əvəzi idi.
indi də günahım qalmadı deyə, cənnətdəyəm.
sənləyəm.
hey!
gözlərimin içinə bax.
de ki,
hər şey bitdi.
artıq zibillik eşməyəcəm,
küçələrdə gəzməyəcəm,
parklarda yatmayacam,
döyülməyəcəm,
söyülməyəcəm.
lənət olsun.
danış!

de.
gözümün içinə bax.
bu qədər çəkdiyim zülmün,
səfalətin, çətinliyin
cavabını kim verəcək?
danış.
susma.
de ki,
bütün bu zillətin əvəzidi bu.
tanrı mərhəmətlidi
ölümümlə bütün günahları bağışlayır.
niyə gözünü çəkirsən?
lənət olsun!
lalsan?
danış.
de ki, onu öldürdüyümə görə
tanrı əlimdən hər şeyimi aldı.
7 il türmədə yatdım.
sonrası çəkdiyim bütün acılar
bəs elədi.
de ki, tanrı məni bağışladı.
cənnətinə qəbul edir.
lənət olsun...
tanrı!
cavab ver!

"tanrı mərhəmətlidi,
amma bir o qədər də qəddar.
bağışlandı bütün günahların.
sevinmə.
hələ cənnətlik deyilsən.
ağ bir vərəqsən.
hər şey sənin əlində
bundan sonra seçimini et.
mən sənin vicdanınam.
sənsə yuxudasan.
indi oyan.
və həyatını seç.
ya uzadılan əli tut və ayağa qalx,
ya da öldür özünü, hər şeyi məhv et.
seçim sənin,
həyat sənin.
sənin əllərində..."

## gözyaşı

bir yuxu gördüm sanki.
qan.
hiss etdim,
əllərim dolu idi
günahlarımla,
qaçırdım.
qan.
hə, qan, qan da var idi orada.
yox, əllərimdə yox.
geridə.
qəribə idi.
ayaqyalın qaçırdım.
geridə sadəcə ağlayışlar,
göz yaşı qalmışdı.
orada nə olmuşdusa,
çox sürətlə qaçırdım.
qorxaraq;
istəməyərək;
günahkarcasına.
qandan qaçırdım əslində.
o qan ki göz yaşına bulaşmışdı
o qan ki günahsızca...
yox!
günah var idi,
ama göz yaşlarının heç bir günahı yox idi.

o damla.
yanağından süzülüb yerə
ayaqların altındakı qana qarışanda
sanki zaman durmuşdu.
sanki bir anlıq
o damla havada asılı qaldı.
dondu qaldı.

nəfəsimi tutmuşdum.
bu pauzadan istifadə edib
qorxularımı da bir küncə atmışdım.
arxadan da səs gəlmirdi.
deyəsən, ağlayanların da dərdləri
bir anlıq unudulmuşdu.
zaman donmuşdu və
üşüdüm.
daha doğrusu, üşüdüyümü hiss etdim.
soyuqdu.
lənətə gəlmiş səhvlərin ucbatından
başqalarının ağlamağı.
çox soyuqdu
göz yaşları.
donuram
deyəsən, boşluqda yox,
elə orada,
gözyaşlarının içində donaraq,
bəlkə də
boğularaq
öləcəm.

## mənə onlardan danış.

mənə danış tanrılardan,
mənə danış ruhlardan,
mənə danış dinlərdən,
mənə danış simvollardan.
mənə danış maraqlı bir nağıl.
mənə danış kiçik bir hekayə.
mənə iki yalan, bir həqiqət danış.
mənə cəzalardan, bəlalardan danış.
mənə hədiyyələrdən danış.
mənə yollardan danış.
axtarışlardan.
yollarda azıb qalanlardan.
axtarıb tapmayanlardan,
tapıb inanmayanlardan.
mənə sevgidən danış,
mənə nifrətdən danış.
bir az şirin-şirin danış,
bir az kədərlə danış,
yox, yox,
yüksək səslə yox.
gəl gir yuxularıma,
mənə oradan danış.
mənimlə danış,
eşidim səsini,
bilim kədərini.
görüm.
yox.
görmək istəmirəm.
yumum yenə qaranlığa gözlərimi.
əsas eşitdiklərimdir, deyil gördüklərim,
kiçik bir həqiqət parçası belə.
mən hardayam bu yolda belə?
bəs başqa kim itirib hər şeyi,

unudub bütün bildiklərini?
kim bənzəyir sənə?
kim bənzəyir mənə?
mənə, mənə bənzəyənlərdən danış.
ya da yox,
mənə qorxaqlardan danış.
axtarışçılardan danış.
kiçik tanrılardan danış.
bilənlər varmı həqiqətləri?
deyənlər varmı yalanları?
kim?
itmiş arzulardan,
batırılmış gəmilərdən.
mənə kədərdən danış.
mənə kədəri yaradan insanlardan danış,
mənə kədəri yaşayanlardan danış.
mənə insanlardan danış;
mənə onlardan danış,
mənə onlardan danış.

## qırılğan

bəzən ilişib qalırsan,
qırılırsan.
ehtiyac olmur böyük şeylərə.
kiçik bir gülümsəmə,
ya da tam tərsi.
bir damla göz yaşı
qırıq bir söz,
yarımçıq deyilmiş cümlə.
ya da səmimi bir hərəkət.
əksinə,
və sairə, və sairə, və sairə...

yuxudan ayılanda hiss edirsən
qopduğunu,
içində
ən dərinliklərdə,
bir qığılcım bəs edərsə meşəni məhv etməyə
sözlərdən qorx o zaman.
həyat dediyin nədir ki?
həqiqətən nədir?
biz nədən ibarətik?
ət-sümük?
bu notlar niyə kədərə qaçır?
təbəssümündə hiss etdim hüznü.
rəqs edərkən
ölümlə
qucaq-qucağa,
qaçmağın zamanı deyilmi?
fikir-hiss-eqo?
göz qapaqların səni məcbur edir:
buludlara qucaq açmaq üçün yum.

bəlkə,
bəlkə rəqəmləri də qatasan işə?

aşağıda bir nəfər pianoda ifa edir
haydı, rəqs zamanıdır.
ölümün zamanıdır.
içindəki bütün hüzn, kədər, ağrı
təbəssümünə yansısın.
ürəkdən gül
çünki bütün əzabların ürəyində.
çıxsın.
at aşağı,
xilaskarına.
xilas etmək üçün.
dayandırıb musiqini o çıxsın buludlara
başqaları ifa etsin, o gülsün.
təkrar-təkrar-təkrar.
sonsuzadək...

yox, sadəcə..
"təkrarla" düyməsi basılı qalıb.
yenə sayını itirdim bu musiqinin.
kədər var
xoşbəxtliyin carçısı.
hüzur sadəcə sakitlikdə yoxmu?
hansı hayqırış rahatlıq ki?
bilirəm,
için-içini yeyir.
illərdi bağırırsan o qapalı qapının arxasında.
əl çək artıq.

səssizliyi qucaqla.
bax indi sənin sırandı.
bu notları sənə həsr edirəm.
kədərini tök üstümə,
mən də gəlim yanına...

## sağlı-sollu

bəzən özümü ikiüzlü hiss edirəm.
yorğunam.
sağ əlim sol üzümdə,
sağ üzüm sol əlimdə...
doğru deyiləm;
yalanam.
ən gözəl rəngləriylə,
sönük bir yalan.
inanılmayan.
inandırmaq istəməyən.
elə yalan olduğu anlaşılsın deyə deyilən yalan.

bəzən ən yaxın dostun belə sıxıcı gələr sənə.
hər kəs nə qədər fərqli olsa da,
hər kəsin bir şəxsi eyniliyi var.
bir zövqü var,
bir rəngi,
bir notu.
bir neçə rəng,
bir neçə notdan ibarət olsa da,
bəzən yorularsan... sadəcə bir anlıq
həmin notu eşitmək,
rəng çalarını görmək yorucu olar.
o zaman əllər yerini dəyişdirər.
sağ əlim sol qulağımda,
sol gözüm sağ əlimdə.

**sarı saçlı ölü**

qırmızı damlaları yerdən silən xidmətçiyəm,
ya da elə o qan damlalarının sahibi.
bəlkə mən qatiləm?
sarı saçlarım yoxdu axı mənim.
bəlkə mən caniyəm?
öldüyümü hiss etmirəm.
bəlkə mən güzgüyəm?
tərsimi görmürəm.
bəlkə mən “mən” deyil, “siz”əm.
onda "siz" nədi?
ölüm?
bənövşəyi?
bəlkə mən sevgiyəm?
nifrət edirəm hisslərimə?
ya da yox,
mən
qısa bir şeirəm.
bir yalanam, ya da həqiqət.
fərqi yoxdu.
əsas olan,
basdıracaqlar görən?
vəsiyyətimimi unutdular?
küllərim dənizdə boğulmalı.
beləmi olmalı hər şey?
necə olmuşdu?
əslində olan
bənövşəyi geyimli bir bəyi
dünən gecə sarı saçlı bir qadın
güzgüdə tərsinə baxarkən öldürmüşdü.
sarı saçlar deyil,
qara saçlar batmışdı qana.
boğulan əslində qatilin ölümü idi,
nifrətinə olan sevgisində boğulmuşdu.
dənizə tulladılar yandırılmış tabutu.

## seçib sözlərindən bir ad tapacam

və sonra baxdım ki,
önəmli olan uçmaqmış.
xoşbəxtlikdən qanad çırpmaq.
ya da tam tərsi:
üzməkmiş gərəkən;
kədər dənizinin ən dibinəcən batmaq.
və bunların hər ikisini eyni vaxtda etmək.
sərbəst buraxmaq ruhunu;
sərbəst buraxmaq sətirləri.
almaq əlinə qələmi
yazmaq.
nə önəmi var ki mövzunun?
sərbəst vəzndə olsun qoy.
qafiyə adıyla məcburiləşdirməyək.
azad burax hecaları.
sonda...
seçib sözlərindən bir ad tapacam,
şeirin adına onu yazacam
beləcə tamam olacaq bütün arzularım.
tüstü dumana qarışanda,
sonum olacaq mənim də.
bu şeir kimi
çox uzun
və qısa.

## siz mənsiz

heç düşündünmü,
bəlkə də əslində biz, mən sonsuzluğun özüyük.
bir dəfə varıq,
amma milyonlarca həyat yaşayırıq.
hər yaşayan elə bizim özümüzük.
hər öləndə
yaddaşımız sıfırlanır
yeni bir həyata başlayırıq.
geridə sonsuz bir ömür,
qarşıda sonsuz bir həyat:
biz tən ortada.

"biz" demişkən,
elə sən də mənsən;
ya da mən olacaqsan.
görən mən kimin keçmişiyəm?
görən kimin gələcəyi?
bəlkə də bu şeiri elə sən yazmısan məndən öncə
indi mən sənin həyatını yaşayıram.
ya da əksinə.
sən əslində hər kəssən.
bəlkə də...
həsəd apardığın,
paxıllığını çəkdiyin,
nifrət etdiyin,
sevdiyin,
hörmət etdiyin
hər kəsin həyatını yaşayacaqsan
bəlkə də.
sırayla,
bircə-bircə.

bəlkə də...
düşündümü heç,

əslində hər şey yaddaşdan asılıdı.
doğulmazdan öncə var idin.
özün seçmişdin bu ölkəni,
bu ailəni,
bu şəhəri,
bu ili.
sonra yaddaşın silindi
dünyaya gəldin.
əgər yaddaşından uçubsa bir xatirə,
əgər xatırlamırsansa bir şey,
bu onun olmamış olmasını sübut etmir.
bu gün yaddaşından silinsə son 1 həftə.
sən yaşadığını xatırlamasan
bu, yaşamadın qənaətinə gəlmir.
görəsən, nələr yaşamışıq?
görəsən, neçə yaddaşdan yoxsul qalmışıq?
neçənci həyatımdı bu mənim?
neçənci günümdü əslində?

## solur bəzən rənglər

kiçik bir qəsəbə var idi; ölülər şəhərinin
yanında.
böyük bir xəyalları var idi qara gözlü balacanın.
səmada,
buludların arxasında gizlənib qalmışdı onun
dünyası.
yol axtarırdı getməyə,
uçmağa.
kiçik bir dibçəyi var idi,
bənövşəyi güllərini dərmirdi.
solmağını gözləyirdi.
solduqda daha gözəl görünür.
axı ölüm varlığı möhtəşəm qılır.
bəs rənglər?
solğunluq var dərisində,
saçları da yox.
deyilənə görə öləcək üç günə-beş günə.
ama onun üçün ölüm yoxdu.

səyahət var.
kiçik barmaqlarıyla göstərib buludların arxasını
göz yaşlarını sildikdən sonra anasının
dedi: ağlama,
bax, ora gedəcəm,
oradan baxacam sənə.
əl sallayacam.

və bir gün anası qəbrinin üzərindən ona əl
sallayırdı.
ölüm necə də mükəmməlləşdirmişdi onu!..
indi o, orada idi.
bəlkə Merkuridə isinir,
bəlkə də Saturnun toz bulud halqasında
tutub öz kiçik yerini...

**suallar, sevgilim, suallar!**

“niyə xoşbəxt deyilsən?”, – deyə soruşan
sevgilim,
dünən gözlərindəki kədərdə boğuldum mən.
bu gün əllərinə bulaşacam.
axı dedim sənə, ağlayarkən üzünü tutma.
sabaha daha gözəl planlarım var
günəş şüalarıyla buxarlanacam.
buluda qarışıb, yağış olub yağacam.
yenidən,
təkrarən...

“bu nə xoşbəxtlik belə?”, – deyə soruşan
sevgilim,
qönçəndəki ölü hüceyrəyəm mən.
sənə gözəllik qatmaq üçün.
mən gülüşünün bir parçası olmuşkən.
burax da sonsuzluğu dadım,
dəymə xoşbəxtliyimə.

növbəti sual nədir, sevgilim?

**tərkediş yolu**

damlalar pəncərə şüşəsinə dəydicə,
uzun yollar bitməsin heç.
bulanıqlaşıb görüş mövqeyim,
qalmışam bir küncdə
sakitcə.

gedişlər çoxdur bu həyatda,
geri dönüşlər də həmçinin.
hansının xoşbəxtlikdən,
hansının bədbəxlikdən:
saymaq mənasız,
rəqəmləri itirdim,
1, 2, 3, 4, 5, 6...

bəs ölüm?
ölüm gedişmi
insanlardan,
həyatdan?
geri dönüşmü?
gəldiyin qaranlığa.
yoxsa ümumiyyətlə heç biri?
ölüm..
ölüm tərkedişmi?
yorğan olub qar bütün torpağa,
təkərin altında qalıb əzilməsi də başqa bir məsələ.
getmək istəyi var;
geri dönmək istəyi,
qurtulmaq istəyi.
tərkediş yolu.

## yarımçıq bir gecə

yəni ola bilər ki, uzun bir ip qırılsın tən
ortadan?
diqqətlə ayır xəritələri
səliqəyə sal,
seç bir şəhəri,
get.
cismin burda qalsın;
fikrən,
düşüncələrinlə,
xəyalınla.
burax da hekayə yarım qalsın.
yarın burda,
yarın orda qalsın.

bəs mən?
mən dənizimi seçmişəm?
gedə bilməmişəm.
bəlkə mən özüm elə səhv xəyallar qurmuşam?
səhv dənizlərdə üzməyə çalışmışam.
yox, xatırladı:
mən heç üzməyi bilmirəm.

bəs sən?
nəfəs almağı bacarırsan?
bəs üzməyi?
boğulsan bəs?
ən çox boğulanlar üzməyi bacaranlar deyilmi?

bir dəfəsində boğulurdum yenə ən dərində,
gecənin dərinliyində.
nəfəs də ala bilmirəm.
sanki ayaqlarım üzülüb yerdən.
gözlərim açılmır.

gördüyüm təkcə şəffaf bir rəng.
rəngin içinə tərəf üzürəm.
süzülüb keçirəm ən dibə.
orada,
orada bir hislə qarşılaşıram
elə ölümə ən yaxın anda,
elə ciyərlərim məndən küsən anda.
amma olmur;
toxuna bilmirəm ona,
oyanıram.
ayılıram.
yarımçıq qalır..

## bir saturn əhvalatı

## mən bir səfil saturn

günəşə həsrət ay var,
ayın dostudur ulduzlar.
qaranlıq bəs nədir?
kədər?
yox əslində.
ayın var oluş səbəbi.
günəşin olmamayışıdır.
qaranlıq.
bu gecənin qaranlığında
kiçik bir ulduz parıltısı lazım.
mən bir səfil Saturn.
ay, oradasan?
hardasan?
bilirəm.
sənin üçün günəşdir önəmlisi.
amma gəl gör nə deyirəm.
boş ver onu-bunu,
günəşi-yeri,
sevgini-dostluğu.
gəl otur, iki kəlmə söhbət edək.
sən danış təkliyindən.
mən də deyim ətrafımda dönən
milyonlarca toz buludu tanışlarımdan.
mənim çoxluğum
sənin təkliyini
doldura biləcək qədər deyil.
bağışla.

## plutona salam de

yenə bir gecə kibrit yandırıb, sönməsini
gözləyirdim.
üfürməyə də ərinirəm.
əlimi də yandıra bilərəm.
önəmi yoxdur, əfəndi.
boş ver,
stulu çək, keç əyləş.
xoş gəldin.
gözüm yolunda qalmışdı.
yol uzaq, bilirəm.
çay da qaynamışkən
iki qurtumluq dərdləşək deyirəm.

bir dəqiqə... kibrit söndü,
yenisini yandırım.
aha, oldu.
bilirsən,
uşaqlar heç icazə vermir darıxmağa.
sayları o qədər çoxdu ki,
fırlanırlar.
elə hey.
yelləncəkdəymiş kimi..

gəl, gəl göstərim.
bax pəncərədən.
niyə geri çəkildin?
çox qorxulumu göründü?
anlayıram səni.
ilk dəfə mən də bura gələndə
çox qorxmuşdum.
hə, hə, bura sonradan gəldim mən.
yerdən gəldim.
sənin ilk planetin hara idi?

burdan sonra hara gedəcəksən?
bizim balacanı tapsan, salam göndər.
de oradakılara: uzaqlıq soyuqluqdu.
amma bəzən soyuqluq
elə ən yaxında olur.
bir dostum var idi
Merkuridən.
deyir bizim yerimiz o qədər isti idi ki,
soyuğu ruhumuzda hiss edirdik.
o qədər yaxına gəlmişdik ki,
keçib getmişdik...

## saturn halqası

kiçik bir toz buludu var səmada,
içində nurlar gizlənib.
bu nur ruhlardan ibarət,
bu ruh ölmüş kiçik uşaq bədəninə aid.
öldürülmüş kiçik uşaqlar günahsızdı,
günah qanlı əllərə məxsus.
qanlar əllər yudu, əllərini qanla,
qana qan qarışdı,
qan qaraldı.
qaralmış qan iz qoydu,
yapışdı boğazından.
bir ömür orada qalacaq,
bəlkə də sonsuzadək.
bir gün canını alacaq,
böyük bir əzabla.
yoxdu yuxuda rahatlıq,
yoxdu yaşamda azadlıq.
hər gecə yuxusuna girir,
hər gecə ona əzab verir
Saturn.

bir kiçik uşaq yenə öldürüldü,
ruhu nura dönüşüb getdi.
toz buluduna qovuşmaq üçün,
sonsuzadək dönmək üçün.

və halqa döndükcə
əzab çəkəcək bütün planetlər.
və o halqa böyüdükcə
lənətlənəcək dünyalılar,
qanlı əlləri olan insanlar.

**saturndakı evin**

xəyal qurmağı bacaran hər şeyi bacarar.
amma baxır onun xəyal gücünə.
sən Samanyolunda səyahətdəykən,
mən qarışqa yuvalarında eşələnirdim.
demək ki yoxdur gücümüz.
amma yox,
bəlkə var?
elə o yuvadaca tapdım ideyanı,
uçmaq arzusunu.
indi gəl öyrət mənə də
səmaların yolunu,
uçaq.
sən Marsa,
mən Saturna

hər şey xəyal etməklə başlayır
deyirsən.
o zaman öncə
saçlarının arasında dolaşan əlimi xəyal et,
sonra səmanı,
ulduzları.
haydı, seçmişkən planetlərimizi
yola düşmək vaxtıdır.
sən Marsa,
mən Saturna.

haydı xəyal etməyin vaxtıdır.
misal üçün, bəlkə
sənə bir xatirə olsun deyə,
bir böyük qaya parçası tapım
Saturn ətrafında fırlanan,
sənin adını verim ona.
hətta böyük olsun.
bir ev xəyal edim

orada,
sənin şərəfinə.
Marsdan yorulanda gələrsən evinə;
əllərim saçınla qovuşsun deyə,
saturnda görüşək deyə.
gələrsən...

## bir soyuq saturn gecəsində

gecə.
barmaqları notların üzərində gəzərkən
hissləri ilə eşitməyi seçdi.
pəncərədən baxdı,
titan da yaxınlarda fırlanırdı.
çayın qaynaması, çaydanın fit çalması
yarım qoydu müqəddəs musiqisini,
kəklikotu qatdı bir az da dəmin içinə,
gəlib pəncərənin önünə,
izlədi tənhalığını.
bu gecə Saturn çox soyuq.

xatırladı illər əvvəl Yupiterə səfərini
onu xatırladı;
gülüşünü..
necə də dalmışdı..
qəribə bir istilik hiss edərkən ayıldı,
çayı üstünə dağıtmışdı.
çay isti,
Saturn çox soyuq.

soyuqluq demişkən,
bir boş stəkanım da var.
birdən qonaq gələn olar deyə,
saxlamışam ən gözəl hisslərlə.
gəl artıq, çayımdan iç,
birlikdə üşüyək.
gecə uzun,
hisslər dərin,
Saturn soyuq;
qəlbi soyuq,
əlləri soyuq..

## eşitdim gedirsən

deyəsən, gedirsən...
çay üçün sağ ol.
uzun illərdi tək içirdim;
var ol.

gedərkən salamımı çatdır məndən
gedəcəyin yerdəkilərə.
fərqi yoxdu kimdilər,
neçə yaşları var, ya da neçə kilodular.
heç dəri rənglərinin də, göz rənglərinin də fərqi yoxdu.
nə də bir önəmi yoxdu hansı cinsdən, hansı dindən,
hətta hansı planetdən olduqlarının:
Saturndan salamımı çatdır
uzaqlara.

həqiqətən, hara gedəcəksən?
getmək demişkən,
"əlvida"ları sevirsən?
bəs nəyi sevirsən?
xatırladım.
şokoladı.
mənimsə səndən bir xahişim var:
bu toxumları götür,
getdiyin yerdə saxla.
bir gün kimsə bura gələsi olsa,
ona ver.
birdən məni ölü tapar.
əksin bu torpağa
məndən xatirə
bənövşəyi qərənfillər.

haydı, noldu?
Saturna qonaq gəlmisən.
ona gülmədin,
mənim güllərimə güldün?
gül, gül.
güllər həmişə gülüş qatsın sənə
“əlvida”lardan sonra.
əlvida bənövşəyi qərənfilim,
əlvida.

## yolun açıq olsun

gedərkən qapını yaxşı ört,
bərk ört.
bəlkə bir də açılmadı.
nəyimə lazım...
sakitcə çürümək istəyirəm burda.
yaxşı, yaxşı.
bir əl ataq mövzuya.

aç ovuclarını.
bu balaca nişanəni al əlinə.
boynundan da asa bilərsən.
ürəyinin üstünə də qoya bilərsən.
məndən sənə yadigar.
xoş xatirələrlə saxla,
sənə ümid olsun.
xəyallarına yoldaş olsun.
arada gəl ziyarətimə,
amma uzaqdan,
toxunmadan.

mənə yox.
ovcuna qoyduğum o sehrə toxunarsan,
nə zaman uçmaq istəsən.
qanadlarsız daha gözəlsən.

güc sənindir artıq.
istək sənindir.
qələbə ovuclarında;
ona sahib çıx.
çox adamda olacaq ondan,
ama elə çoxu anlamayacaq onu.
sən gizlincə anla,
özündən ayırma.
sənə güvənirəm.

**vaxtı çatıb**

göz qapaqları yenə zəif düşüb,
amma hələ də ümid var.
qazılmalı bir qəbir var;
yorğun bir saturnlu
alıb əlinə beli,
başladı.
atmosfer.
heç solmamışdı o havanı.
solunum sistemi də yox idi zatən.
nəfəs lazım ikili insanlara.
burda tək insan idi;
ikincisi qonaq gəlmişdi.
tez getdi.
təkliyə öyrəşdirdi.
oysa neçə çay soyutmuşdu arxasınca.
necə həvəslə gözləmişdi qonağını.
necə tez getdi gələn.

hazırdı.
əllərimə sağlıq.
bəli, bəli.
heç bir məntiqə uyğun deyil.
mən məntiqsizəm!
hətta indi  oksigensiz yandıracam özümü
neft tökүb özü də.
pəh!
sənin məntiq dünyanda çox şey gözəl ola bilər.
mənim xəyal dünyamda heç nə mümkünsüz
deyil.

yumarkən gözlərini,
kiçir bir qığılcım bəs elədi
məhv etməyə bütün xəyalları.

ağrıdan deyil,
sevincdən,
içdən,
ən dərinlərdən
bağırdı;
reallaşdıqca xəyalları,
bağırdı.
nədənsə kədərə bürünmüşdü
bütün uşaqlar.
hey, halqadakılar
niyə hərəkət etmirsiz?
deyəsən, onlar da yoruldu.
son olsun o zaman bu.
bitsin hər şey.
küllərimi gəlib götürərsiz.
mən xoşbəxtlikdə yanıram,
mən kədərdə xoşbəxtliyi tapıram.
haydı.
sağlıcaqla.

**göyqurşağı**

## bənövşəyi

başlanğıc tanrının olsun,
hər şey ona aid olsun.
bəs onun rəngi nə olsun?
alıb əlimə dəftərimi-qələmimi
ya da at bunları bir kənara.
mən səssizcə danışacam,
sən əzbərlə,
yadında saxla.
tanrının rəngidir bənövşəyi;
bir çiçəkdir bənövşə
və bir rəngi vardır
bənövşəyi.
hər şey ondan başlayar.
göyqurşağı da bənövşəylə başladı.
bənövşəyi tanrının rəngidir;
şöhrətin,
eqonun rəngidir.
ya da elə şahların rəngidir.
mistik bir şeir var onun içində,
ya da hər kəsdən gizlədilmiş bir sehr.
qəribə bir görünüş var:
sanki gecə düşüb də
gözlərimə qocalıq çöküb.
tanrı da yaşlanıb artıq.
bütün mürəkkəbliyini
sadə şəkildə bir rəngdə yansıdıb
bu gecə.
gecənin gizlin rəngini
qucaqla.
Tanrının rəngidir bənövşəyi;
Nitsşe öldürdü tanrını bir intiharla,
intiharın da rəngi bənövşəyi;
Tanrının rəngidir bənövşəyi...

## göy

başını qaldırıb da bax səmaya,
göylərin rəngini gör,
göyü gör.
sonsuzluğun rəngini gör.
o upuzun uzanıb gedən səmada
gözlərim qamaşar baxdıqca
müdrikliyinə və sədaqətinə.
niyəsə, içimdə bir heyranlıq yaranır
rənginə.

gördüyüm göy olsun.
göylərin rəngi olsun.
nə də olsa, biz tanrını axtarmadıqmı göylərdə?
nə də olsa, biz inanmadıqmı göydəkinə?

yoxsa?..
yox.
biz təmiz fərqli insanlarıq.
müdriklik yağır gözlərimizdən.
deyəsən, yağış da yağır.
inancsızlığımızdanmı?
Tanrının göz yaşıdır yağış.
göyün sədaqətindəndir damcılar...

gözlərimi dikib diqqətlə uzağa,
çox uzağa baxıram.
gözlərim bulanıqlaşır
deyəsən, artıq heç nə görmürəm.
yağış da narın yağır.
durduğum yerdən baxmağın adı yox,
bir hərəkətə başlayaq:
yolumuz uzun,
göylər sonsuz,
biz sonluyuq...

## mavi

gəlib çatmışam deyəsən, sahilə
yağış da güclənib.
tanrımı mənə qəzəblənib?
axı mən nə etdim indi?
gözlərim də yorğunlaşıb.
üst-başım da yavaş-yavaş su olur.

gözlərim baxır uzağa,
sonsuzluğa;
səmayla dənizin qovuşduğu yerə.
tanrını axtarır deyəsən orada;
yerlə göyün birləşdiyi yerdə.

birdən,
istəməyərəkdən gözüm sürüşür aşağı
göydən keçir maviyə hər şey...
o dalğalı dəniz var qarşımda.
indi sakitləşib
heyran olmaq vaxtıdır amma.
yağış da yağır,
hələ bu azmış kimi
dalğalar çırpıldıqca qayalara
damla-damla salama gəlir.

qarşımda durub bütün sakitliyiylə həqiqət.
ruhumu sanki isidəcək dəniz.
içimdən
qolumu çırmalayıb üzmək keçir
balaca bir uşaq saflığıyla...
yağış da dayandı artıq.
zatən çox da yağmadı.
yorğunam mən də bir az,
hərəkət zamanı...

## yaşıl

dərin bir nəfəs aldım;
sərin bir hava vardı.
biz yağışın ətrini sevərik,
amma deyəsən, o torpağın ətridi.
bəs niyə sevərik?
sevdiklərimiz torpağın altında...
onların ətrimi bu?

çox da mistikaya qaçmayaq, bəlkə
həm də yaşıl otların ətri?
yaşıl demişkən
bu otların da bir gözəl ətri var ki...
bu qədər yorğunluqdan sonra
yaşıl məni sakitləşdirə bəlkə;
çıxa canımdan ağrılarım.
tanrıya da lütf eləmək lazım,
qəzəbi soyuya bəlkə mənə qarşı.
uzun-uzun danışıb
başınızı ağrıtmayım.
dərindən nəfəs alıb
yatın.

## Sarı

heç bəyənmədim...
nə sözümü, nə özümü.
yatıb qalmışdım çəmənlikdə,
bir ağacın sərin kölgəsində.
yağış da məndən uzaq,
davam edir yağmağa.
səma da saralmağa başlayıb,
gün, deyəsən, batacaq bir azdan.
yoxsa hələ çox var?

sarı demişkən,
baxıram bu yarpaqlara.
görəsən, intiharmı ediblər onlar da?
saralıb-solublar.
ağacmı qurtuldu yarpaqdan,
yoxsa yarpaqmı qaçdı ağacdan?
yorğunluq da bir yandan.

bu qocalıq işarətidir?
bəlkə bezginliyin?
mövzularda üzmək varkən
bir dar çərçivədə boğulmağın günahıdı.
bacarmamaq...
yaza bilməmək.

yazmamaq demişkən,
saralmış kağızlar,
sarı vərəqli kitablar uzaq düşüb bizdən...
oxuyarkən kitabı,
arxa fonu sarı edək ən azından,
bəlkə hiss etmədik o zaman
kağız vərəqləmədiyimizi.
nə də olsa, əlimizi sürüşdürürük
ekranın üzərində
vərəq çevirircəsinə.

**narıncı**

ümumiyyətlə,
narıncı rəngli bir günəş
tutub bütün səmanı.
durub biz də rənglərdən danışırıq;
ya da yağışdan.

danışmaq bir yana,
yazmaq daha yaxşı.
qapanmaq içinə,
öz rənglərinin içinə.
danışmaq öz-özünə,
özünlə.
özgəymiş kimi;
özgələşdirmədən.

yaddaşımda da qalıb bir-iki xatirə,
gecə gec saatlaradək
yağışın yağması,
şimşək çaxması.
öyrədilən nə idi bizə,
miflər də buradan yarandı,
səbəbini bilmədiklərini tanrıya aid edərək.
bəs nə idi möcüzə?

"yaxşı düşün", – dedi bir qızcığaz,
qocalmış barmaqlarıyla
yaşıl otların arasındakı
sarı yarpaqları yığan qocaya.
"baba, bax məni parka aparsan,
sabah evdə ağıllı oturacam".
yağış hələ də davam edir.
mənsə artıq bezmişəm.
narıncı...

## qırmızı

günəş də artıq olub qırmızı;
son yağış damlalarıyla
yaranıb göyqurşağı.

mən anladım:
mən bezmişəm,
mən getməliyəm.
artıq sadəcə bunu istəyirəm:
rənglərin içində boğulmaq.

gözüm göyqurşağına sataşdı,
dənizə gəlib girib sanki.
içimdə bir hiss yarandı:
tanrıya qovuşmaq
göyqurşağında boğularaq.

çıxıb da sahildə bir addım önə,
tam yaxınkən dənizə,
dərin bir nəfəs aldım sonuncu dəfə.

sanki o nəfəsi verərkən
içimdə bir şeylər qırıldı.
məndən başqa bir mən də çıxdı.
hətta ikisi:
sağımda biri,
solumda biri.

və elə o an,
sonuncu damlayla barabər
biri özünü dənizə atdı.
üzərinə su sıçrayan digəri
geri dönüb həyatına davam etməyə başladı.
və elə o an

mən oradaca qaldım.
üçüncü mən,
əsl olduğuna inanmadığım,
amma özümü orada hiss etdiyim mən.
qaxılıb qalmışdım yerimdə.
bir tərəfdə boğularaq can verərkən
bir tərəfdə bərkdən gülən
iki mənin arasında.
sınmış,
yarımçıq,
yorğun.

sonsuzluğu qucaqladım.
sonsuzadək orada qaldım....

## uzağın bir adı var

**get, yolun açıq olsun.**

bir yol görünür, qaranlıqla aydınlığın
sərhədində.
qaç, qaç ora doğru.
yolun açıq olsun.
ehtiyatlı ol, görmək istəyən çox var yıxılmağını
sənin də.
bu bədən qaranlıqdamı, işıqdamı boğulsun?
hansı yolu seçəcəksən?
öləcəksən yoxsa itəcəksən?
nə zaman gedəcəksən?
get, yolun açıq olsun.
qalmaq nədir ki?
kədər itirməkdədir.
zamanla yox,
birdən-birə itirdiklərimizdədir.
ya yerini zaman alacaq,
sən yavaş-yavaş gedəcəksən.
ya yerini kədər alacaq,
birdən-birə yoxa çıxacaqsan.
amma get.
geridə qoyduqlarının kədərinə baxma.
göz yaşlarına aldanma.
sən,
sən öz xəyalların üçün get,
sən öz həyatın üçün get,
sən özün üçün get,
zatən bu qədər zaman geridəkilər üçün
yaşadın,
indi öz həyatını yaşamaq üçün get.
get.
yolun açıq olsun.
çətindi.
çətindi, gedənin arxasınca əl sallamaq.

çətindi onu unutmağa çalışmaq.
amma buna fikir vermə.
illərlə sənə çəkdirdiyimiz çətinliklərin əvəzidi bu.
bizim üçün yaşamağa məcbur etdik.
indi, sənin üçün əl sallamağa məcbur et.
get.
yolun açıq olsun..

## dediyin kitabı oxudum bu gecə.

dediyin kitabı oxudum bu gecə.
sonra yuxuya daldım.
yuxuma qonaq gəldin,
uzun müddətdir ki üzünü görmürdüm.
inan ki, artıq üzünü xatırlamıram belə,
bəlkə də, gördüyüm heç sən deyilsən,
adi bir obraz idi kitabdakı...

dediyin kitabı oxudum bu gecə,
dağlıq bir yer təsvir olunmuşdu neçəncisə
səhifədə.
xatırlamıram, nə səhifəni nə yerin adını,
üzünü xatırlamadığım kimi.
amma yuxumda orda idim.
o dağın ətəyində bir çay axırdı.
ayaqlarını çaya salmış
uşaq kimi gülürdün.

sonacan oxumuşdum.
hətta sarı kağızdakı son qeydini belə.
gülümsəməyimi xahiş etmişdin.
ümid etmişdin ki, hər şey yaxşı bitər.
bağışla.
yaxşı bitmədi.
öldürüldü bütün obrazlar,
oğurlandı xəyallarımdakı sənə aid yerlər,
oysa necə sevinmişdim sənə görə..

indicə oyandım yuxudan.
hələ hava qaranlıq.
yenidən yatıb eyni yuxunu görmək istəyirəm.
bəlkə, kitabı birdə başdan oxuyum?
lütfən, keçmişə qayıdaq.
yenidən hədiyyə ver bu kitabı mənə.
yenidən qurum eyni xəyalları.
olmayacağını bilə-bilə.
mənə yetər o kiçik zaman kəsiyi.

## bu şəhər

sən başqa şəhərdən idin,
mən başqa şəhərdən.
bu şəhərdə ilk dəfə
salamlaşmışdıq.
bu şəhərdə son dəfə
sağollaşdıq.

bu şəhərin küçələri sanki çox dar.
üzərimə-üzərimə gəlir.
səkiləri soyuq,
yolları çat.
təkliyimi sığışdıra bilmirəm bu şəhərə.

bu şəhər mənə yad gəlir.
sanki çox özgə.
yolları da özündən beş-betər.
əvvəlcə bu yollarda özümü itirdim.
sonra çıxdım axtarışıma
səni tapdım.
məni tapmaq üçün kömək etdin.
birgə axtardıq itirdiyim məni.
sonda gəlib kiçik bir küçədə tapdım özümü.
onda da, deyəsən, səni itirdim.

bu şəhərin yolları çox uzaq.
məsafələr yorur məni,
məsafələr qovur səni.
bu yollarda xatirə var, həsrət var.
bu yollar qorxudur məni.

bu şəhər görüşdürdü bizi
bu şəhər ayırdı bizi.
bir gün başqa şəhərdə
bir gün başqa küçələrdə
yolumuzun kəsişməsi diləyi ilə...

## uzaqlarda bir şəhər var

uzaqda bir şəhər var,
o şəhərdə milyonlarca xəyallar,
milyonlarca həqiqət var.
o şəhər reallığın şəhəridi,
o şəhər mənim şəhərimdi.

hər kəsin bir şəhəri var bu dünyada.
hər ümid, reallaşacaq bir gün burada.

bir yol var, o şəhərə aparır bizi.
öz şəhərimizə.
hər kəsin bir şəhəri var,
mənim də bir şəhərim var,
sənin də bir şəhərin var.
və sən yol aldın artıq öz şəhərinə doğru.
yol aldın, gedirsən...
mən də bir gün başlayacam artıq
addımlamağa, oraya, uzağa,
öz şəhərimə doğru.
xilasa doğru.

bilirsən,
buralar bizə o qədər yad gəlir ki,
sanki, biz heç bu şəhərli deyilik,
burada yaşamamışıq,
burada doğulmamışıq.
bu şəhəri,
sadəcə bir günlük ziyarətə gəlmişik.

bizim öz şəhərimiz var,
əzəldən gəldiyimiz şəhərimiz var.
sanki, orda olmuşduq,
orda doğulmuşduq,
yada orda yaşamışdıq 3-5 il.

oranı ilk dəfə görəcək olsaq belə.
sanki, çoxdan biz ziyarətindən gəlmişik o şəhərin.
və yolumuzu təkrar salmışıq o şəhərə.
öz şəhərimizə doğru.
bir gün, mən də orada olacam.
bir gün, sən də öz şəhərinə çatacaqsan.
sən başqa şəhərdə, mən başqa şəhərdə.
uzaqdakı şəhərdə.
o zaman ikimiz də uzaqlarda olacağıq ...

## bu gün gözlərimi sənsizliyə açdım

səhər saat 7,
çoxdan oyanmışam.
yoxsa heç yatmamışam,
gözlərimdə var yorğunluq.
özümü atdım Bakının küçələrinə.
həm boş, həm soyuq.
təkcə gəzirəm
buludlara baxaraq.
bir həsrət var,
bir kədər var,
yalnızlıq hissi var,
sən yoxsan.

bu gün gözlərimi sənsizliyə açdım.
ovdum gözlərimi.
güzgüdəki əksimə baxdım.
biraz tərsdən baxdım.
gözlərimə baxdım.
birdə nə zaman görəcək səni...

sən indi başqa şəhərdə.
sənin indi uzaqlarda.
nə səsin var,
nə nəfəsin,
nə də, bir işarə.
yaşayırsanmı?
heç onu da bilmirəm.

bu gün gözlərimi sənsizliyə açdım.
açdım açmağına da,
nə zaman
yumacam?
gözlərimin həsrətinə son qoyacam?
nə zaman səni bir də görəcəm?

nə sevgilimsən,
nə də ki, dostum.
səni heç tanımıram bəlkə də,
dünən var idin,
bu gün yoxsan.
sabaha bir şübhəli baxış atdım.
xatirələrimi biraz eşələdim.
bir-iki qırıntı qalıb səndən.
bir də, gözlərimdə həsrət.

“Üç-beş yüz səhifədən ibarətəm
bir-iki nəfərin evində”.

**Ali Xayyam**

gedərkən qapını yaxşı ört,
çox soyuqdu Saturn.
üşüyürəm sonra.
qayğıma qalanım da yox, məlum.
amma sən
salamat qal.

sağ əlini qaldır havaya,
sol əlini endir aşağıya.
bədənin yandıqca
külün suya,
tüstün dumana.
sonsuzluğa.
əlvida!..